Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Məsləkim, silahım yazmaq

**Tofiq Bayramın 85 illik yubileyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı-2019**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Məsləkim, silahım yazmaq:** Tofiq Bayramın 85 illik yubileyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası ; tərt.ed. A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova ; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2019. - 33 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

## Tərtibçidən

*Şair öz eliylə sevinə gərək,*
*Elin qəzəbiylə qabarmalıdır.*
*O, ana bətnindən məzar evinə*
*Ürəyi tərtəmiz aparmalıdır...*
*Tofiq Bayram*

Bəlli bir həqiqətdir: şair-doğma xalqının yaradıcı istedadının daşıyıcısıdır. Onun bu qeyri-adi qisməti şairlik amalının ucalığını, eyni zamanda çətinliyini şərtləndirir. Öz varlığında xalq başlanğıcını duymaq şairin poeziyasına təbiilik, səmimilik, vətəndaşlıq, aşılayan amildir. Belə poeziyanı geniş oxucu kütləsi sevir, yaddaşına yazır. Tofiq Bayramın vətəndaş inamlı, xalqsevər poeziyası beləcə sevilir.

Azərbaycan ədəbiyyatında və poeziyasında görkəmli şair, tərcüməçi, Əməkdar incəsənət xadimi Tofiq Bayramın özünəməxsus bir yeri var. O, hər zaman poeziyamızın seçilən şairlərindəndir. Xarakterindəki bütövlük, çılğınlıq, onun şeirlərində və bütün yaradıcılığında özünü göstərir.

Tofiq Bayramın poetik inamına, ilhamına qol-qanad verən vətən sevgisi, xalq eşqidir. Azərbaycan mövzusu onun yaradıcılığının məhək daşı, hərəkətverici qüvvəsidir. “Azərbaycan deyəndə...” şeirini neçə-neçə şeirsevərlər əzbər söyləyirlər.

Vətən şairin nəzərində qurub – yaradan elimizdir, füsünkar təbiətimizdir, şeirimizi, sənətimizi şöhrətləndirən dühalardır.

## Həyat və yaradıcılığı

Tofiq Bayram 1934-cü il dekabrın 16-da Bakı şəhərində anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra APİ-nin tarix fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə "Azərbaycan müəllimi" qəzeti redaksiyasında şöbə müdiri kimi başlamışdır. Sonra Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində ədəbi işçi, M.F.Axundov adına Dövlət Opera və Balet Teatrında ədəbi hissə müdiri, "Ulduz" jurnalı redaksiyasında, "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında şöbə müdiri, "Yazıçı" nəşriyyatında baş redaktor müavini işləmişdir. Sonra yaradıcılıqla məşğul olmuşdur. Lope de Veqanın "Hiyləgər məşuqə" pyesini tərcümə etmişdir. A.T. Tvardovskinin "Yaddaşın hökmü" poemasının tərcüməsinə görə M.Qorki adına Azərbaycan Dövlət mükafatı laureatı fəxri adına layiq görülmüşdür (1988).

1991-ci il aprelin 19-da vəfat etmiş, Bakının Əmircan kəndində dəfn olunmuşdur. Tofiq Bayram Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əməkdar incəsənət xadimidir.

## Yubiley tədbirlərinin keçirilməsi

Tanınmış qələm ustadı, istedalı şair, publisist Tofiq Bayramın anadan olmasının 85 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, icmal, dəyirmi masa, ədəbi-bədii gecə keçirilə bilər. Şairi sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil olunmalıdır. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: "Haqqım var ki, öyünəm", "Təbiiliyi sevən şair", "Silinib getmərəm xatirələrdən", "Özü getdi, şeiri qaldı yadigar", "Gözəl əqidə sahibi Tofiq Bayram", "Gözəl təbli qələm adamı Tofiq Bayram", "Gəlimli, gedimli dünyanın sevilən şairi", "Gərək bu sözləri hava tək, su tək, gərəkli sözləri axtarım tapım" və s.

# Kitab sərgisi















## Görkəmli şəxsiyyətlər Tofiq Bayram haqqında

Tofiq Bayram ensiklopedik ziyalı, yüksək təfəkkürə malik böyük ürək sahibidir. Şairlik, vətəndaşlıq, qeyrət və hünər onun şəxsiyyətində birləşmişdir. Odlu-alovlu, coşqun, Promitey hünərli bir insandır.

**Aslan Aslanov,**
*akademik*

Sizin ana dilimizdə yazdığınız şeirlər nənə laylası qədər şirin, qana hopan, ata təlabatı qədər ciddi səslənən çoxcəhətli şeirləriniz biz oxuculara daima mənəvi qida verir. Şair ömrünün parçalanaraq oxucu ömrünə qarışması, şairin indiki və gələcək oxucularla birgə yaşaması deməkdir.

**Budaq Budaqov,**
*akademik*

Hörmətini Abşerondan, şeiriyyətini Xəzərdən, təravətini sabahından alan əsərlər müəllifi – şair qardaşım, dostum, odlu şeirlərimizin qaynar təbiətli oğlu Tofiq Bayram.

**Niyazi,**
*SSRİ Xalq artisti*

Böyük şəxsiyyət olmayan yerdə, böyük sənətdən söhbət açmaq qeyri-mümkündür. Hər cür möcüzənin qaynağı cəsurluqdur. Belə bir şəxsiyyət cəsur insan və şair Tofiq Bayramdır.

**Süleyman Rüstəm,**
*SSR Xalq şairi*

Qardaşım Tofiq! Sənə baxanda özümü Səməd Vurğun xilqətli, etibarlı, inamlı və vüqarlı bir şair kimi görürəm.

**Hüseyin Arif,**
*Xalq şairi*

Böyük Səməd Vurğunun vəfatından sonra mənim üçün Azərbaycana gəlmək, onun yerini boş görmək son dərəcə ağır idi. Amma bu gün gənc və istedadlı şair Tofiq Bayramın odlu-alovlu şeir oxumasını dördlükdən sonra mən inandım ki, Səməd Vurğunun layiqi yetişir.

**Nazim Hikmət,**
*türk şairi*

Şair dostum Tofiq Bayramın özünə, ilhamına, şeirlərinə həmişə arxalanmışam.

**Məmməd Araz,**
*Xalq şairi*

Poeziyyanın tərifləri çoxdur, Onlardan biri də budur ki, şeir-sözlərin ən gərəklisini tapa bilmək sənətidir. "Məsləkim, silahım" göstərir ki, Tofiq Bayram bu həqiqəti və onu özündən sonrakı poeziyanın da proqramı kimi elan etmiş şairlərdəndir.

**Yaşar Qarayev,**
*filologiya elmlər doktoru, ədəbiyyatşünas*

Litva Yazıçılar İttifaqı İdarə Heyətinin və 1972-ci il "Poeziya baharı" bayramını keçirən "Mükafat Komitəsi"nin adından həmin bayramda yaxından iştirak etmiş Tofiq Bayrama səmimi təşəkkürümü bildirirəm.

**A.Maldonis,**
*Litva YİİH-nin sədr müavini*

Mən dünyanın heç bir yerində auditoriya tərəfindən Tofiq Bayram qədər hərarət və xüsusi məhəbbətlə qarşılanan şair görməmişəm.

**Andrey Vaznisenski,**
*rus şairi*

Tofiqin ata-anası, onun sənət yoldaşlarını öz övladları kimi çox istəyirdi. Atası Qulam əmi bizi ən gözəl yeməklərdən olan

dəvə ətindən hazırlanmış qutaba, aşa qonaq edərdi. Onlar bizi doğma övladları kimi qarşılayardılar.

**İlyas Tapdıq,**
*Xalq şairi*

Şeirimizin inam, əqidə yolunda vətəndaşlıq pafosunun genişlənməsində, yüksəlişində misilsiz xidməti olmuş gözəl şair qardaşım, ilk gənclik illərimizdən həmişə qolumuzdan tutmuş xeyirxah ziyalımız Tofiq Bayrama – yaradıcılığına və şəxsiyyətinə dərin hörmətlə.

**Sabir Rüstəmxanlı,**
*Xalq şairi*

Tofiq Bayram adlı bir ocağın oduna isindiyim üçün Tofiq Bayramın ruhuna və öz şair taleyimə minnətdaram. O, mənim qəlbimdə, ruhumda, yaddaşımda, xatirələrimdə yaşayır.

**Zəlimxan Yaqub,**
*Xalq şairi*

Kitabxanada keçiriləcək ənənəvi tədbir forması kimi *"Gərək elə yanım"* adlı **oxucularla söhbət** keçirilə bilər. Tədbirdə kitabxanaçının dəyərli məlumatlarından sonra iştirakçılar və oxucular ədibin həyat və yaradıcılığı haqqında öz fikirlərini bildirirlər.

*Kitabxanaçı:* Yuxu da, nağıl da köçdü beşikdən,
Dəyişdi gözümdə bu həyat-baca.
Bir gün körpəliyim düşdü beşikdən,
Dəcəl uşaqlığım çıxdı ağaca!..

Tofiq Bayram öz dövrünün istedadlı şairlərindən hesab olunur. İstedadla bacarıq arasında böyük fərq var. Bəli, istedad başqa, bacarıq başqadır. Söz quraşdırmağı, qafiyə düzməyi, şeirin zahiri bəzəyini düzəltməyi bacarmaq şairlik demək deyildir.

Şeir şairin ürəkləri dindirən dilidir desək, yanılmarıq. Şairdə yanar ürək, dəqiq, dərin müşahidə qabiliyyəti, yüksək mədəniyyət, oxucuların ürək tellərini dindirmək, şeir üçün yeni bədii vasitələr axtarıb tapmaq qabiliyyəti əsasdır. Şeirdən ürəklərə hərarət, gözlərə işıq gəlməlidir. Şair özü üçün deyil, xalq üçün yazır. Axtarış da düzgün anlaşılmalıdır. Tofiq Bayram hər dövrün şairlərindəndir. Onun hər dövrdə geniş oxucu kütləsi var və olacaq. Onun şeirlərində vətənpərvərlik hissləri güclüdür. Tofiq Bayramın elə şeirləri var ki, onları həyəcansız oxumaq mümkünsüzdür. Bəli, oxucularla şeir dili ilə danışmaq, onların ürəklərindəki telləri dindirmək şairdən hünər tələb edir. Tofiq Bayram bir neçə şeir kitabının müəllifidir. Şairin şeirləri könül açandır, ürəyə yatandır. Əlbəttə, belə şeirlərin kökü, mayası bizim varlığımızdır. Bu şairin həyatla, insanla qaynıyıb-qarışmasının nəticəsidir. Tofiq Bayramın istənilən mövzuda-vətəndən, xalqdan, dostluqdan, təbiətdən, məhəbbətdən yazılarında səmimilik və təbiilik vardır. Səmimiyyət şeir üçün əsas amillərdəndir. Ürəklərə yol tapan, könülləri dilləndirən, dillər əzbəri olan əsərlər, əlbəttə, ürək döyüntüsüylə, ilhamla yazılmış şeirlərdir.

Tofiq Bayram şeirləri ahu-zar, sızıltı, küskünlük, düşkünlük kimi motivlərdən məhrumdur. Tofiq Bayram həmişə nikbin biri olmuşdur. O, heç vaxt şeirlərini şeir xatirinə yazmamışdır. Onun şeirləri bir daxili tələbdən doğmuşdur. Tofiq Bayramı düşündürən, onu həmişə narahat edən məsələ şeirin çətin, lakin şərəfli yollarında qələm ordusundan geri qalmamaq, gələcəyi bu gündən görmək, yeni şeir mənbələri tapmaq və öz şairlərini sevən xalqa xidmət etmək olmuşdur.

Tofiq Bayram səlis üslublu, rəvan dili, ifadə tərzi ilə fərqlənən şairlərimizdəndir. Şair ömrünün son anına kimi sünilikdən uzaq qaçdı, təbii oldu. Bu sözlər də dilinin əzbəriydi: "Təbii olmaq eyib deyil..." Onun üçün ülvi, təmiz məhəbbət

Tanrı qədər əlçatmaz, əziz, müqəddəs idi. Deyərdi: "Qaya parçasını, daşı da ürəkdən sevsən, üzünə gülər. Şirin, xoş söz nəvazişdən quruyan bulaqların gözü açılar".

Tofiq Bayram yaradıcılığını oxuculara tanıtmaq və şair qələmini sevdirmək üçün kitabxanada keçiriləcək maraqlı tədbirlərdən biri də *"Gərək elə yanım, külümdən belə, nəsillər tanısın, Tofiq Bayramam"* adlı **şeir müsabiqəsidir.** Kitabxanaçı əvvəlcədən məktəblərlə əlaqə saxlayaraq oxucuları kitabxanaya cəlb edir. Şagirdlərə şairin kitabları təqdim edilir. Şagirdlər müəyyən şeirlər seçərək iştirakçı qismində tədbirə hazırlaşırlar. Əvvəlcədən təyin olunmuş tədbirin vaxtı gəlib çatır, münsiflər və qonaqlar öz yerini alırlar. İlk olaraq kitabxanaçı səhnəyə gələrək münsiflər və qonaqları salamlayır, iştirakçılara isə uğurlar arzulayır.

*Kitabxanaçı:* Məni əbəs yerə gəl tutma dilə,
Odumdan qorxursan demə ki, xamam.
Gərək elə yanım, külümdən belə,
Nəsillər tanısın, Tofiq Bayramam!

*İlk iştirakçı "Uşaq və dəniz" adlı şeirinə başlayır.*

Gün çıxır, od tutub yanır üfüqlər,
Dəniz də qızınır onun odunda.
Qızıl balıq kimi qızıl şəfəqlər
Üzür ləpələrin göy qanadında.

Qızarmış uşağın gül yanaqları,
Bu gözəl səhnədən o, göz çəkməyir.
İstəyir yerisin sulara sarı,
Ləpə iməkləyir, o iməkləyir.
Xurmayı saçını dağıdır külək,
Qəlbinin inadı oxunur üzdən.
Bir istək aparır, onu bir istək–
Qızıl şəfəqləri alsın dənizdən.

Güclənir, hay salır bu an ləpələr,
Qoparmaq istəyir o, duran yeri.
Sahilə pələng tək cuman ləpələr
Sahildən quzutək qayıdır geri.

Yenə göy sulara al şəfəq düşür,
Yüyürüb gəl deyir, o, yenə gəlmir.
Əl atır, ovcundan çıxıb sürüşür,
Bu necə balıqdır əlinə gəlmir?

Gözündə qorxudan görünmür bir iz,
Qalxır ləpələri qaldırsın deyə.
Köksündə gəmilər oynadan dəniz
Oyuncaq görünür indi körpəyə!..

*Kitabxanaçı "Qoca daşyonan" şeirini demək üçün ikinci iştirakçını səhnəyə dəvət edir.*

Gedir kənd yoluyla o, asta-asta,
Gözümdə dağ kimi ucalıb gedir.
Güclü qayalara güc gələn usta
Zəif çəliyindən güc alıb gedir.

Təntiyib o, nəfəs alır dərindən,
Əsən meh qəlbinə sərinlik yayır.
Alnında görünən çapıq yerindən
Gümüş saqqalına tər damcılayır.
Neçə ev hörübdür sal qayalardan,
Onları seyr edir, o, bir-bir indi.
Gözü nurdan düşüb, əli tutardan
Çəliyə söykənib yeriyir indi.

Ürəyi kövrəlir hər addım başı,
Qanadsız quş kimi uçmaq istəyir.
Bir zaman çəkiclə yonduğu daşı
Titrək əlləriylə qucmaq istəyir.

Düşünür getdikcə bu saçları qar,
Ürək təngiməsin, əl yorulmasın.
O gəzər dünyanı, təki bu yollar
Ömür yollarının sonu olmasın...

*Kitabxanaçı "Azərbaycan deyəndə" adlı şeiri demək üçün üçüncü iştirakçını səhnəyə dəvət edir.*

Vətən mənim bu günüm,
Sabahkı toy-düyünüm.
Haqqım var ki, öyünüm
Azərbaycan deyəndə.
Ürəklərdə döyünüm,
Azərbaycan deyəndə.
"Hər ölkəyə, hər elə,
Olsun hörmət", deyirəm.
"Vətənindir, vətənin,
İlk məhəbbət", deyirəm.
"Onun şöhrət tacıdır,
Şeir-sənət" deyirəm.
Mən vətənə, "Füzuli,
Abbas Səhhət" deyirəm!
Mən vətənə, "Sabiri
Doğan qeyrət", deyirəm!
Mən vətənə, "Üzeyir,
Müşfiq, Səməd", deyirəm!
"Günəş kimi müqəddəs

Bir həqiqət”, deyirəm,
Azərbaycan deyəndə.
“Dünya məni dinləsin,
– Diqqət, diqqət!”,
deyirəm.
Azərbaycan deyəndə!
Azərbaycan deyəndə,
Ləpələr şairləşir.
Anaların bətnində,
Qara gözlü körpələr
Pələngləşir şirləşir.
Azərbaycan deyəndə,
Müdrik qocalar kimi
Dağlar da fikirləşir.
Azərbaycan deyəndə
“Haralısan?” sualı,
Verənlərə ar olur.
Qeyrətlilər birləşir,
Qeyrətsizlər xar olur
Azərbaycan deyəndə!
Dostdan sovqat, muştuluq,
Düşməndən bac alaram,
Azərbaycan deyəndə!

*Dördüncü iştirakçı “Ana dilim” şeirini demək üçün öz yerini alır.*

Qalxıb Şahdağına söz istəyirəm,
Çatsın hay-harayım dinləyənlərə,
Mən nankor deyirəm, nacins deyirəm –
Öz ana dilini bilməyənlərə!

Bu dil şirinlikdə şərbət kimidir,
Saflığı qorunan sərhəd kimidir,

Anamız Vətən də qürbət kimidir –
Öz ana dilini bilməyənlərə!

İtsin gözlərimdən qoy ilim-ilim,
Qəzəb ümmanıyam, yoxdur sahilim.
İlan zəhərindən acıdır dilim –
Öz ana dilini bilməyənlərə!

Döyüşdə bərkiyib el polad olur,
Zirvəyə uçmağa dil qanad olur.
Torpağın sevinci, dərdi yad olur –
Öz ana dilini bilməyənlərə!

Mən qədim "Qarabağ şikəstəsi" yəm,
Üzeyir nəfəsli gül dəstəsiyəm.
Vaqifin, Vurğunun nifrət səsiyəm –
Öz ana dilini bilməyənlərə!

Yad dildən pay umub kişi dilənməz,
Bu ləkə üstündən heç vaxt silinməz.
Füzuli şeirdə kimdir bilinməz –
Öz ana dilini bilməyənlərə!

Beyninə girmədi, ana öyüdü,
Əsilsiz yaşayıb o küt böyüdü,
Görüm haram olsun ananın südü –
Öz ana dilini bilməyənlərə!..

*Tədbirin sonunda münsiflər heyəti qalibləri müəyyənləşdirir. Sonra qaliblər və digər iştirakçılara mükafat verilir.*

Tofiq Bayramın 150 illik yubileyi ilə əlaqədar kitabxanada keçirilə biləcək tədbirlərdən biri də **konfransdır.** *"Haqqım var*

*ki, öyünəm"* başlıqlı konfransda alimlər, ədiblər, tədqiqatçılar, şairlər, müəllimlər, ali məktəb tələbələri və s. qonaqlar iştirak edə bilərlər. Konfransda Tofiq Bayramın həyat və yaradıcılığı, keçdiyi şərəfli ömür yolu haqqında qonaqlara geniş məlumat verilir. Konfransın ikinci hissəsində isə ali məktəb tələbələri iştirakçı qismində çıxış edirlər.

*I iştirakçı:* Tofiq Bayram tərcümə sahəsində qələmini sınamış və bu sahədə uzun illər səmərəli fəaliyyət göstərmişdir. Onun dünya və keçmiş SSRİ xalqları ədəbiyyatından tərcümə etdiyi əsərlər bədii kamilliyi ilə seçilir.

Ömrünün yarısını bu fədakar işə sərf edən Tofiq Bayram tərcümə əsərini əmanət sayar, "əmanətə xəyanət olmaz" deyər, tərcümə prosesini "qanköçürmə əməliyyatı"na bənzədər - "qan qrupu uyğun olmayanda tərcümə olunan şeir də xəstə olur"- deyərmiş.

O, Aleksandr Tvardovskinin "Üfüqlərdən-üfüqlərə" (1966), dünya xalqlarının incilərindən ibarət "Ürəkdən-ürəyə" toplusu (1975), Rasul Həmzətovun "Durnalar" (1973) və "Dostları qoruyun" (1989) adlı şeir kitablarını, A.Puşkinin "Mosart və Salyeri", A.Tvardovskinin "Yaddaşın hökmü", A.Axmatovanın "Rekviyem" poemalarını, habelə İspan dramaturqu Lope de Veqanın "Hiyləgər məşuqə" pyesini ustalıqla dilimizə tərcümə etmişdir.

Şair eləcə də Y.Yevtuşenko, L.Xaustov, V.Konstantinova, İ.Abaşıdze, M.Posxişvili, T.Ciladze, balkar şairi Qaysın Quliyev və bir çoxlarının həqiqi sənət əsərlərini seçərək, onları yüksək bədii səviyyədə tərcümə etməklə Azərbaycan oxucusuna töhvə etmişdir.

Öz əsərləri ilə Azərbaycan ədəbiyyatına verdiyi töhfələrə görə Tofiq Bayrama 1984-cü ildə "Əməkdar incəsənət xadimi", dünya xalqlarının poeziyasından nümunələrin yüksək peşəkarlıqla Azərbaycan dilinə tərcümə edilməsindəki əməyinə

görə isə 1988-ci ildə “Maksim Qorki adına Azərbaycan Dövlət Mükafatı” laureatı fəxri adları verilmişdir.

Şeirlərini və poemalarını vətənə, doğma yurda, ana dilinə məhəbbət və vətəndaşlıq yanğısı ilə yazan şair - “poeziya hər şeydən əvvəl şairin inamından, onun əqidəsindən yaranmalıdır” - fikrinə inandığını həmişə dilə gətirərək, “İnamım, əqidəm” şeirini – yazmaqla bu fikrini sübuta yetirmişdir.

Yaşaya bilərəm odsuz, ilhamsız,
Yaşaya bilmərəm çörəksiz, susuz.
Yaşaya bilərəm yüz il yuxusuz,
Yaşaya bilmərəm bir gün inamsız...

*II iştirakçı:* Tofiq Bayram XX əsrin 50-ci illərinin sonlarında ədəbiyyata gələn şairlər nəslinin ən istedadlı nümayəndələrindəndir.

Mətbuat orqanlarında dərc olunan özünəməxsus poeziya nümunələri ilə ədəbi ictimaiyyətin və oxucuların nəzərində yer tuta bilən gənc şair, yaşa dolduqca şeiriyyət pilləkanlarını daha əzmlə qalxaraq, bir sıra dəyərli və yaddaqalan şeir və poemaları ilə geniş oxucu kütləsinin rəğbətini qazanmağa müvəffəq olmuşdur.

Tofiq Bayramın fikrini yığcam və sərrast ifadə etmək məharəti onun poeziyasının əsas xüsusiyyətlərindən idi. O, nə yazırsa, nədən yazırsa yazsın, qələmə aldığı mövzunu ürəyinin süzgəcindən keçirər, hər misrasına poetik don geyindirər, fikrini aydın və obrazlı şəkildə çatdırar, əsası isə oxucuya həyacan yaşatmağı bacaran, onu düşündürən, dünyaya, həyata açıq gözlə baxmağı təlqin edən şairlərdəndir.

Ən başlıcası isə o vətəndaş şair idi, torpağına və Vətəninə bütün varlığı ilə bağlı, mövqeyi isə hər kəsə bəlli idi. O, əsl yaradıcı insan olaraq, içərisində yaşadığı cəmiyyətdə cərəyan edən hadisələrə vətəndaş vicdanı ilə cavabdeh olduğunu bilərəkdən öz mövqeyini ortaya qoyaraq nöqsanlı cəhətləri

qəzəblə qamçılayan, xeyirxah əməllərdən isə ilham alaraq qələmə sarılan, ədəbiyyatı özünün həyatı sayan, ilhamına güvənən, şeiri-sənəti canından əziz tutan, poeziya gecələrini, gur məclisləri çox sevən, coşqun təbiətli bir şair idi.

Tofiq Bayramın xoşbəxtliyi bir də onda olmuşdur ki, özü dediyi kimi o, həmişə ağıllı, zəngin dünya görüşü olan, təmənnasız insanların əhatəsində olmuşdur.

Tofiq Bayram qadınlara-analara həmişə böyük ehtiramla yanaşmış, onun yaradıcılığında "qadın-ana" mövzusu aparıcı yerlərdən birini tutmuş və şair onlara olan tükənməz sevgilərini "Analıq haqqı", "Ana sevinci, ana qəzəbi", "Anam ağlayır", "Qadınlar və analar haqqında qəsidə", "Ay gecikən məhəbbətim", "Qadın ürəyi", "Şair arvadına" və bu kimi şeirlərində ürəklə, ilhamla vəsf etməyə müvəffəq olmuşdur. "Analıq haqqı" şeirində, "Yüz il dayansam da qulluğunda mən, Ay ana, bir günlük haqqın ödənməz"... deyən şair, bacısı gəlin köçdüyü zaman yazdığı və sonradan bəstəkar Süleyman Ələsgərov tərəfindən musiqi bəstələnərək dillər əzbərinə çevrilən mahnıya çevrilmiş "Anam ağlayır" şeirində -

Duvağa bürünüb yola düşürsən,
Qonşular telinə çiçək bağlayır.
Ay bacım, sən haldan-hala düşürsən,
"Vağzalı" çalınır, anam ağlayır...

yazaraq, duyğularını belə kövrək və poetik dillə ifadə etmişdir.

Bu bir danılmaz həqiqətdir ki, hər yaranan əsərin bir qaynaq mənbəyi olur. Qaynaq mənbəyi olmayan əsər obrazlı şəkildə ifadə oluna bilmədiyi kimi, heç vaxt da qəlblərdə yer tutub əbədilik qazana bilməz.

Yuxarıdakı parçalardan da göründüyü kimi, Tofiq Bayram yaradıcılığının hər nümunəsi bir "istinad nöqtəsi" ndən doğmuş, sonradan isə papulyarlaşaraq ictimailəşmişdir.

Zərifə xanım xatırlayaraq söyləyir ki, hələ institutda oxuyarkən Tofiq hər onu qarşılamağa gələrkən təqdim etdiyi yeni şeirini, evdə kimsənin görəcəyindən ehtiyatlanaraq onların bəzilərini cırıb atsa da, ev arxivini araşdıran zaman, saralmış kağızlarda hələ də aydın oxunan bəzi şeirlər üzə çıxmışdır. O, söhbətinə davam edərək -Tofiq hərdənbir mənə zarafat edərək, özü hiss eləmədən belə xətrimə dəysə də, mən buna münasibət bidirib bir söz deməzdim. Toy mərasimlərinin birində bu bir də təkrar olunandan sonra biz evə dönəndə sakit və mülayim səslə ona - "Tofiq, sən mənim qəlbimə dəydin, toxundun, ancaq mən sənə heç nə demədim", deyərək kövrəlib mətbəxə keçdiyini və bir az keçmiş isə -

Necə rəhmlidir, necə amansız,
Necə mehribandır qadın ürəyi.
Sən onu sındırsan, bil ki, a qansız,
Ağlayan kamandır qadın ürəyi...

misraları ilə başlayan təzəcə yazdığı "Qadın ürəyi" adlı şeiri ayaq üstə ona oxuyaraq könlünü aldığını, köks ötürərək xatırlayır.

Yaxud,

...Gərək bəri başdan biləydin sən də,
Onların dəyişməz bir adəti var.
Şairə nə qədər keşik çəksən də,
Hardasa bir gizli məhəbbəti var.

misralar ilə bitən "Şair arvadına" adlı şeiri Zərifə xanım qısqanclığa "yer" verdiyi zaman yarandığını bildirir.

Biz bir dəfə onun arxivini araşdıranda sevgi məktublarını tapdıq. Oxudu, kövrəldi və sonra - "Ey saralmış vərəqlər, gözümlə sığallanıb, əlimlə əzizlənib, sətirlər arasında uşaqlığım gizlənib. Məhəbbətim gizlənib, sətirlər arasında..." misraları ilə başlayan "İlk sevgi məktubları" şeirini yazdı...

Tofiq Bayramı sevənlər yaxşı bilirlər ki, şairin məhəbbət mövzusundakı şeirləri son dərəcə təsirli və yaddaqalandır. Onun hələ tələbəlik illərində yazdığı:

...Qəlbimizin hər sevinci, hər qəmi,
Dinməsək də gözümüzdən oxunur.
Mürəkkəbə batıranda qələmi,
Əllərimiz bir-birinə toxunur...

*(Məhəbbət şeirindən)*

*yaxud,*

İllər boyu səni gəzdim,
Ay gecikən məhəbbətim!
Sən yubandın, mən tələsdim,
Getdi gənclik təravətim,
Ay gecikən məhəbbətim!..

*III iştirakçı:* Tofiq Bayram dostluğa sadiq adamlardan olmuş, səmimiliyi və duzlu-məzəli söhbətləri ilə dostlarının və onu tanıyanların hörmət və rəğbətini qazana bilmişdir. Onun yaradıcılığında dostlara ünvanlanmış şeirləri qırmızı xətlə keçir.

Anaların süd qoxulu laylalarında,
Körpələrin nəğməsində Vurğun yaşayır.
O dil açır ürəklərin şah damarında,
Sevənlərin sinəsində Vurğun yaşayır.

*(Xalq şairi Səməd Vurğuna)*

...Geydiyin dirijor paltarında sən,
Hara səs aparsan, nəğmə daşısan,
Orda qanadlanar, ucalar Vətən.
Deyirlər Niyazi hər yanı gəzir,
Dilində doğmadır, o, yadların da.
Demək, Azərbaycan dünyanı gəzir,
Sənin o qaranquş qanadlarında...

*(Keçmiş SSRİ Xalq atisti Maestro Niyaziyə)*

Onun Anara (Xalq yazıçısı) ünvanladığı dostluq mövzusundakı şeirdə, şair özünün mülayim yumor hissini aşağıdakı incəliklə təcəssüm etdirir:

Filmimlə pyesim verib səs-səsə,
Roman yazmağa da xoşum var, xoşum.
Tənqid güldən ağır mənə söz desə,
Fikrim var, hirslənib şeir də qoşum...

Tofiq Bayram həm də valideyin olaraq qayğıkeş ata olmuş, uşaqlarını çox sevmiş, - "Günəş yatır dənizdə", "Balaca hesabdar", "Pərvizin şəkli" kimi onlarla bu kimi maraqlı uşaq şeirləri yazmışdır. Şairin oğlu hələ kiçik yaşlarında ikən ona yazdığı "Oğul məhəbbəti" şeirində -

Qəşəngdir oğlumun xurmayı saçı,
Qaşları qaradır, gözləri qonur.
Məni görən kimi o, qanad açır,
Bala göyərçintək sinəmə qonur...

deyirsə, artıq oğlu böyüyərək hərbi xidmət çəkəndə isə digər şeirində deyir.
"Əsgər oğluma" şeirində -

Ürəyi Vətənçün döyünən oğlum,
Atanın köksündə döyünməyə gəl.
Əsgər paltarını geyinən oğlum,
Bəylik paltarını geyinməyə gəl...

Şair qələmini satira janrında da yoxlamış və "Görüş xəstəsi və çiçək dəstəsi", "Millətinin gül balası", "Tülkünün aqibəti" kimi düşündürücü şeir nümunələri yaratmışdır.
*IV iştirakçı:* Tofiq Bayram "Əlcəkli Bahadır", "Təbrik çiçəkləri", "Yaralı nəğmə" kimi poemaların və "Füzuli" pyesinin, habelə "Anam ağlayır", "Ay gecikən məhəbətim", "Axtaracaqsam", "Göygöl" və bu kimi populyar mahnıların mətninin müəllifidir.

Zərifə xanım: - Mən Tofiq Bayramı həmişə tələbkar (xüsusən gənclərə qarşı), həqiqəti üzə deyən insan, şeirlə nəfəs alan, odlu-alovlu, inandığı həqiqətə sadiq qalan, pıçıltını sevməyən, kimliyindən asılı olmayaraq həmişə yaxşıya "yaxşı", pisə "pis" desə də, çox vaxt düz danışmağının ağrısını çəkən olduğunu görmüşəm - deyir.

Dost-tanışları, onu tanıyanlar hamısı Tofiq Bayramı dostcanlı və qonaqsevər bir adam olduğuna bələd idilər. Dünya şöhrətli - rəssam Səttar Bəhlulzadə, dirijor Maestro Niyazi, şair və yazıçılardan - Süleyman Rüstəm, Nəbi Xəzri, Məmməd Araz, İslam Səfərli, Əlfi Qasımov, İlyas Tapdıq, Rəfiq Zəka, Əli Kərim, Xəlil Rza, Sabir Rüstəmxanlı, Nüsrət Kəsəmənli, Zəlimxan Yaqub, Səlahəddin, Sərdar Əsəd bizim evimizin daimi "sakinləri"ndən idilər - deyə o xatirələrə qapılır.

Tofiq deyərdi ki, "Təklik hələ tənhalıq deyildir. Mən həmişə tək qalanda xatirələrlə yaşayıram. Yaxşı günlərimin dostları ilə danışıram. Dostlarımın çoxu artıq dünyadan köçmüşlər, mən tək qalmışam".

Axır vaxtlar yazdığı şeirlər vasitəsilə deyərdi:

...Məlhəmim sizsiniz, ey şeirlərim,
Siz mənə ən doğma, ən əzizsiniz.
Sənət dünyasında boş qalmaz yerim,
Özümdən sonrakı həyat sizsiniz.

*(Köhnə şeirlərimlə söhbət)*

Kaş ki öləcəyim günü biləydim,
Biləydim nə zaman son nəfəsimdir.
Demirəm dünyaya bir də gələydim,
Bir dəfə gəlmişəm, elə bəsimdir...

*(Ömrümə bir gün qalmış)*

*V iştirakçı:* O, özündən sonra yüzlərlə, minlərlə ölməz sənət əsərləri, gözəl poeziya nümunələri qoydu getdi bu dünya üçün, dünyadakılar üçün - həm özününküləri, həm də dilimizə

çevirdiyi, özümüzünküləşdirdiyi müxtəlif dünya xalqlarının nümayəndələrinin əsərlərini. Bax, elə budur Tofiq Bayramın bu dünyadan qazancı, qazancından da çox, bu dünyaya, dünyamızdakılara qazandırdıqları.

Onun "şəkər diabeti" ndən çəkdiyi ağrıların üzərinə daha bir dəhşətli "ağrı" gəldi - "Qarabağ ağrısı". O, şəkərin verdiyi ağrılara dözsə də, Vətən ağrısına dözə bilmədi və 1991-ci ilin aprel ayının 19-da Əmircan kənd qəbiristanlığında fiziki cismini qatdı Vətən torpağına, ruhunu göylərə, şeirlərini isə bizlərə əmanət verərək...

Ümummilli liderimiz Heydər Əliyev cənablarının şəxsi təşəbbüsü ilə Tofiq Bayramın doğulub boya-başa çatdığı, Bakının Əmircan qəsəbəsindəki "İstirahət parkı"nda şairin əzəmətli büstü ucaldılmaqla bu parka şairin adı verilmişdir.

1998-ci ilin sentyabr ayının 24-də parkın yenidənqurulmasından sonrakı açılışında şəxsən iştirak edən Heydər Əliyev cənabları çıxış nitqində Tofiq Bayramı ədəbiyyatımızın böyük qayğıkeşi adlandırmış və onun yaradıcılığına yüksək qiymət verərək demişdir: "Suraxanı torpağı Azərbaycana, xalqımıza böyük insanlar vermişdir. Onların arasında Tofiq Bayramın xüsusi yeri var. Tofiq Bayram Azərbaycanda gözəl şeirləri, əsərləri, onun şeirlərinə bəstələnmiş mahnıları, fədakar yaradıcılığı ilə tanınmış və məşhur olmuşdur. Tofiq Bayramın sağlığında da xalq həmişə ona sevgi və məhəbbətini, hörmətini bildirmişdir.

*VI iştirakçı:* Dostlarının dediklərinə görə, Tofiq kükrəyən dağ çayı, coşqun dalğalı Xəzər idi. Ağır yerişli, şax duruşlu, şux danışıqlı, açıq ürəkli bir insan idi. Rəhmətlik İslam Səfərli həmişə deyərdi ki, Tofiq ilə Zərifə haqqında bir dastan yazacağam. Əfsus ki, həyat vəfa etmədi, dünyasını ömrünün 50-ci ilində dəyişdi.

Tofiq "Qulaq asın övladlarım" şeirini yazandan sonra, mənə dedi ki, Zərifə, uşaqlarımızın tərbiyəsində sənin böyük rolun var. Çünkü sən onları sakit edərək, mənim şeir yazmağıma şərait yaradırsan. Şair arvadı olmaq, yüz körpəyə baxmaqdan çətindir. *(Zərifə Bayramova - həyat yoldaşı);*

Zərifə xanımın söylədiklərinə görə: "Onun ən çox sevdiyi şairlər S.Vurğun, M.Müşfiq, A.Tvardovski və A.Puşkin, ən çox sevdiyi rəssam Səttar Bəhlulzadə, ən çox sevdiyi dirijor maestro Niyazi, ən çox sevdiyi bəstəkar isə Üzeyir Hacıbəyli olmuşlar. Tofiq Bayram zəngin və qaynar ədəbi mühitin ab-havasından keçən gənclik illərini hər zaman böyük minnətdarlıqla xatırlayar. Onu da deyərmiş ki, - "Biz, 50-ci illərdə ədəbiyyata gələn cavanlar- Əli Kərim, Məmməd Araz, Nəriman Həsənzadə, Famil Mehdi, Cabir Novruz, İlyas Tapdıq, İsgəndər Coşqun, Rüfət Zəbioğlu xoşbəxt nəsil olmuşuq. Səməd Vurğun, Mehdi Hüseyn, Əli Vəliyev, Mirzə İbrahimov, Süleyman Rüstəm, Sabit Rəhman, Rasul Rza, İlyas Əfəndiyev, Məmməd Rahim kimi ədəbiyyat ağsaqqalları yaradıcılıq taleyimizdə müstəsna rol oynamış, öz qiymətli, obyektiv və müdrik məsləhətlərilə gözümüzü dünyaya açmış, bizə qol-qanad vermişlər".

Ömür-gün yoldaşı Zərifə xanımın səyləri nəticəsində özündən sonra dünyaya yeni göz açmış növbəti kitabı - "Ay anam Bakı" adlı şeirlər kitabı müəllifin yaxınlaşmaqda olan doğum gününə (16 dekabr) əsl töhfəsidir.

Göz açmısan Əmircanda-
Səttar doğulmuş məkanda.
Abbasqulu bu cahanda-
dövran etdi aram-aram,
Od nəfəsli Tofiq Bayram.
"Ana dilim" - üzük qaşı,
"Kəndin fəxri vətəndaşı".
Adətindir söz savaşı-

seçdin sözü qram-qram,
Od nəfəsli Tofiq Bayram.
Deyirsən - “Anam ağlayır”,
Qız köçürür, bel bağlayır.
Dayılıq səni haxlayır-
mən qardaşam, vəfadaram,
Od nəfəsli Tofiq Bayram.
“Nazim Hikmət”i öyürsən,
“Şair qocalmaz” deyirsən.
Sözdən əlvan don geyirsən-
bu çalarlı təbə varam,
Od nəfəsli Tofiq Bayram.
Var “İlk sevgi məktubları”,
Zərifədir gözəl yarı.
Hər kəlməsi söz nübarı-
Niyaziyə dastandaram,
Od nəfəsli Tofiq Bayram.
İlyas Tapdıq danışanda,
Sanki oldum Əmircanda;
Hər səfərin bir dastanda...
od yurduna minnətdaram,
Od nəfəsli Tofiq Bayram.
“Ay gecikən məhəbətim”,
Sevgin - könül səltənətin.
Dildə gəzir “Məhəbbət”in-
oxuduqca sızlar yaram,
Od nəfəsli Tofiq Bayram.
Süfrə açaq “Göygöl” üstə,
Duyaq ətri xoş nəfəsdə.
Meydanlıyla bir məclisdə-
olsan kaman, bil ki, taram,
Od nəfəsli Tofiq Bayram.

Yazıçı-şair Tofiq Bayramın 85 illik yubileyi ilə əlaqədar olaraq, keçirilən maraqlı tədbirlərdən biri də ədəbi-bədii gecədir. “Ay gecikən məhəbbətim” adlı ədəbi-bədii gecə keçirilir. Gecədə Azərbaycanın görkəmli ədibləri; şair və yazıçılar, sənət-söz adamları, bəstəkar və müğənnilər, oxucular, məktəblilər və ümumilikdə Tofiqsevərlər, sevgiyə, məhəbbətə dəyər verənlər toplaşır. Qonaqlar şairin şəkilləri, müxtəlif adda əsər başlıqları və şeir misraları yazılmış çərçivələrlə bəzədilmiş zalda öz yerlərini alırlar. Gecənin əvvəlində tədbir iştirakçılarına Tofiq Bayramın həyat və yaradıcılığından bəhs edən slayd təqdim olunur. Sonra isə ədəbi-bədii gecədə şairin sözlərinə bəstələdiyi mahnılar səsləndirilir. Gözəl ovqatdan sonra aparıcılar səhnəyə yaxınlaşır.

*I aparıcı:*

Yaşaya bilərəm odsuz, ocaqsız,
Yaşaya bilərəm çörəksiz, susuz,
Yaşaya bilərəm yüz il yuxusuz,
Yaşaya bilmərəm bir gün inamsız.
Soyusa ürəyim köksümün altda,
İnamın oduyla mən yanmalıyam.
Ömür sürürəmsə mən bu həyatda
Kiməsə, nəyəsə inanmalıyam.

*II aparıcı:* Tofiq Bayramın ilk şeiri 1950-ci ildə, yəni hələ orta məktəbdə oxuduğu ildə dərc olunmuşdur. O, çox ərkən yaşlarından poeziyaya böyük həvəs göstərirdi. Bu həvəs onu yaradıcılıq müzakirələrinə, ədəbiyyat dərnəklərinə çəkib gətirərdi. O, həmin illərdə Yazıçılar İttifaqında keçirilən “Gənclər günü” ndə də fəal iştirak edir, təcrübəli yazıçıların məsləhətlərini dinləyir, onlardan poetik yaradıcılığın sirlərini, professional vərdişlərini öyrənirdi.

*I aparıcı:* Şairin yaradıcılğında diqqəti cəlb edən başlıca məziyyət-onun yaradıcılığında poetik nəfəs genişliyi, öz şəxsi həyacanlarında zəmanənin həyacanlarını və təfəkkürünü əks

etdirməsi, misraların emosional və fikri cəhətdən siqləti olmasından ibarətdir. Bu isə birinci növbədə onun şairin vəzifəsini əhatəlli və ciddi başa düşməsi ilə izah olunmalıdır. Böyük poeziyasının yolu ağır və əziyyətlidir. Şair bu yolda öz şəxsi-fərdi səadəti qeydinə qalmamalıdır və qala da bilməz. Onun sinəsi, onun qəlbi dünyanın qayğısı ilə yüklü olmalıdır.

*II aparıcı:* Qu quşu ömründə tək bircə kərə,
Deyib nəğməsini köçür dünyadan.
Həyat daha şirin olur şairə
Ən gözəl şeirini yaradan zaman.
Hər ürək bu yolda gətirməyib tab,
Şairlik nə bəylik, nə sultanlıqdır;
Şairlik ən böyük əziyyət, əzab,
Şairlik ən böyük qəhrəmanlıqdır.

*I aparıcı:* Tofiq Bayram bu fikrini təsdiq üçün poeziya tarixinə nəzər salır, ən böyük şairlərin mənəvi dəyərlərini xatırladır, xalqın taleyində şairlik rolu haqqında mühakimələri dərinləşdirir və inkişaf etdirirdi. Şair və xalq birdir, parçalanmaz, bütövdür. Şairin qəlbinə tuşlanan güllə yalnız bir şairin, bir şəxsin qəlbinə dəymir, bütöv bir xalqa, bütöv bir millətə dəyir; xalqa divan tutmaq istəyən hökmdarlar bu işi ilk növbədə şairlərdən başlayıblar. Şairin əməyi, çətin vəzifəsi, onun əzablı taleyi haqqında Tofiq Bayramın düşüncə, mühakimə və ümumiləşdirmələri mücərrəd deyil, dərin və əhatəli bir tarixi təfəkkürü ifadə edirdi.

*I aparıcı:* Tofiq Bayramın şeirlərinin ümumi bir xüsusiyyətini də qeyd etmək olmaz. Bu, onun hər şeydən əvvəl, lirik şair olmasıdır. O, bütünlüklə lirik şair idi. Lirika Tofiq Bayram şeirinin dərin, daxili mahiyyətli bir xüsusiyyəti olmuşdur; o aləmi, varlığı, predmeti lirik qavrayırdı. Bu, onun poeziyasının mühüm bir cəhətidir. Bir lirik şair kimi isə Tofiq Bayram predmeti və hadisəni fəlsəfi-aforistik planda izah və

mənalandırmağa çalışırdı. Bu baxımdan Tofiq Bayramın, heç şübhəsiz, ilk növbədə "səkkizlikləri" fərqləndirilməlidir. Tofiq Bayramın poeziyasında bu, xüsusi və yeni bir janrdır. Şairin bu formada yazılmış son dərəcə gözəl, mənalı şeirləri vardır; hətta həmin janrda poetik çələnglər yaratmışdır: "Nizami çələngi", "Sabir çələngi", "S.Vurğun çələngi", "Səttar çələngi" və müxtəlif mövzularda, motivlərdə yazdığı səkkizliklər... Tofiq Bayramın səkkizliklərində əsas və başlıca məziyyət bunlarda fikrin-canlı, humanizmlə aşılanmış, müdrik fikrin, həyatın şairanə dərkiməqamlarında birdən-birə doğan fikrin dəqiq və yığcam ifadəsidir.

*II aparıcı:* Gəlin silahları tökək dənizə,
Ölüm yığnağıdır müharibələr.
Ağıl meydanında gələk üz-üzə
Görək bu yağışda kim qalib gələr.
Mən burda tərksilah olmaram, inan;
Hazıram rəqiblə haqq-hesab çəkim.
Silahlar içində ən uzaq vuran,
Bircə silahım var: O da məsləkim.

*I aparıcı:* Tofiq Bayramın qırx il ərzində poeziyada, yaradıcılıqda keçdiyi yolun ümumi mənzərəsi belədir. Əgər biz bu mənzərəni qısaca ümumiləşdirsək, qeyd etməliyik ki, sevimli şairimiz həmişə, bütün ədəbi fəaliyyəti boyu poeziyada narahat, qaynar bir ömür yaşamışdır.

*II aparıcı:* Tofiq Bayram poeziyasındakı qadınlarımızın həyatından bəhs edilən şeirlər çoxdur. O, gah beşik başında, nəvəsinə layla çalan ağbirçəkli nənədən, övladlarının qayğısı ilə yaşayan, ailə ismətini hər şeydən üstün tutan həyat yoldaşından, gah da ilk məhəbbətin acısını-şirinini təzəcə dadan növrəstə qızdan söz açır:

Qadınlar dünyanın ən cəfakeşi,
Qadınlar dünyanın ən bəxtəvəri;

Hər evin qadındır tale günəşi,
Hər eşqin qadındır, şirin bəhəri.

*I aparıcı:* Şair ana laylasını dünyada ən şirin nəğmə, ananı isə yer üzünün ən böyük bəstəkarı adlandırır. Qadın anadır, bacıdır, yoldaşdır. Qadın məğrur ataların, mərd oğulların, vəfalı ərlərin həyanı, arxasıdır.

*II aparıcı:* Bu il Tofiq Bayramın anadan olmasının 85 ili tamam olur. Yaşasaydı yubiley günlərini bizimlə birgə keçirə bilərdi. Amma yanmaq, oda dönmək, külə çevrilmək istəyi ilə çırpınan bir şair üçün, əlbəttə, bu mümkün olmayandır. O, təkcə bir şair kimi yox, həm də tərcüməçi və nasir kimi ədəbiyyatımızın zənginləşməsində böyük əmək sərf etdi. Dünya xalqları ədəbiyyatından, rus ədəbiyyatından bir çox şeir və poemaları dilimizə çevirdi. Qeyd etmək lazımdır ki, bu tərcümələr özünün bədii səviyyəsi, yüksək tərcüməçi peşəkarlığı ilə diqqət cəlb edir, bu gün də sevilməkdə, oxunmaqdadır.

*I aparıcı:* 1990-cı ildə Tofiq Bayram yataq xəstəsi idi. Qəzetlərin birində onun haqqında yazı dərc edilmişdi. Adı isə "Necəsən, Tofiq Bayram" - adlanırdı. Tofiq müəllim qəzet əməkdaşının sualına belə cavab vermişdi: "Mən hər zaman yaxşı olacağam". Hər zaman yaxşı olan şair, ruhun şad olsun!

## Ədəbiyyat siyahısı

***Əsərləri***

Seçilmiş əsərləri : şeirlər . - Bakı : Lider, 2005. - 328 s. - (Müasir Azərbaycan ədəbiyyatı).

Azərbaycanım : şeirlər, poemalar. pyes. - Bakı : Azərbaycan, 2015. - 656 s. - (super cildli)

***Müxtəlif mövzulara və şəxslərə həsr olunmuş şeirləri***

***Kitablarda***

Ana dilim : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 184-186.

Atılmış çörək : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 126.

Ay gecikən məhəbbətim ; Qadın ürəyi ; Sənin əlindədir və b. şeirlər : 3 cilddə. - Bakı : Xəzər Universiteti Nəşriyyatı, 2009. – 3-cü kitab : 20-ci əsr Azərbaycan Poeziyası. - S 31-46.

Azərbaycan deyəndə : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 13-14. ;

Vətənə nəğmə çələngi. - Bakı : Qoliaf, 2011. - S. 249-251.

Azərbaycan dünya gəzir : Niyaziyə ithaf olunur // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 58-62.

Azərbaycan haqqında nəğmə : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 164.

Azərbaycanım : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 171-172.

Azərbaycanım gəlir : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 195.

Bir səhnə : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 159.

El məhəbbəti : Səməd Vurğuna həsr olunmuş şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 119.

Əsgər anası : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 64-65.

Əsgər oğluma : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 62-64.

Fikrət Əmirovun xatirəsinə : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 148-150.

Hacı Zeynalabdin Tağıyevin abidəsi qarşısında : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 154.

Ləkəsiz günəş : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 158.

Maestro Niyazinin xatirəsinə : şeir // Seçilmiş əsərləri. - 2005. - S. 147.

Müşfiqin adı : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 159.

Nazim Hikmətə : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 215.

O niyə qocaldı? : Səməd Vurğuna həsr olunur // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 119.

Odlar yurdu ; Vətən sevgisi : şeirlər // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 158.

Qarabağ nəğməsi : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 161-162.

Qəhrəman Azərbaycanım : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 202.

Qız qalası : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 155.

Rübabə Muradovanın xatirəsinə : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 146.

Ruhun şad olsun : Səttar Bəhlulzadəyə həsr olunmuş şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 122.

Şairin Şikayəti : mənzum pyes : Füzuli // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 221-240.

Sənətin Məcnunu : Səttar Bəhlulzadəyə həsr olunur // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 121.

Səttar möcüzəsi : şeir : Səttar Bəhlulzadəyə həsr olunur // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 115.

Şövkət Ələkbərovaya : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 124.

Şuşanın şəhər bağında : Xan Şuşinskinin xatirəsinə // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 125.

Topağa andım : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 155.

Üzeyir Hacıbəyovun ev muzeyində : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 110.

Vahidin xatirəsinə : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 146.

Vaqifin məqbərəsi önündə // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 82-83.

Vurğun : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 118.

Xudu Məmmədovun xatirəsinə : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 188.

Yamanlığa yaxşılıq : Səttar Bəhlulzadəyə həsr olunur // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 122.

Yaralı nəğmə : poema : Mirzə Fətəli Axundov // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 250-320.

*Haqqında*

**Xəlilzadə F.** Duyğuların söz çələngi : Onun əbədi bir arzusu vardı ki... // Kaspi. - 2019. - 16 aprel. - № 67. - S. 11.

**Xəlilzadə F.** Hər axan bulaqda səsim-ünüm var deyən şair : [Tofiq Bayram həyat və yaradıcılığı haqqında] // Kaspi. - 2016. - 17-19 dekabr. - № 209. - S. 7.

**Xəlilzadə F.** İki istedadlı ömrün bir dayanacağı : Biri firça, biri də qələm ustadı // Kaspi. - 2018. - 13 dekabr. - № 214. - S. 15.

**Paşayev Q .** Öyünməyə haqqı olan şair : Tofiq Bayram // Yada düşdü. - 2016. - № 2. - S. 20-25.

**Paşayev Q.** Öyünməyə haqqı olan şair : Tofiq Bayram haqqında // Borcumuzdur bu ehtiram. - Bakı : Qarabağ, 2010. - S. 87-101.

**Süleymanzadə M.** Yazıçılar haqqında xatirələr // Azərbaycan. - 2016. - № 9. - S. 165-169. – Yazıda Tofiq Bayram haqqında da qeydlər verilmişdir.

**Tağısoy N.** Gərək elə yanım : [şair Tofiq Bayramın yaradıcılığı haqqında] // Ədəbiyyat qəzeti. - 2017. - 22 aprel. - № 14. - S. 24-25.

**Vahidqızı Ü.** Yer üzünün Azərbaycan təntənəsi : [Tofiq Bayram] // Xalq qəzeti. - 2017. - 16 dekabr. - № 278. - S. 7.

**Yaqub Z.** Tofiq Bayram dünyası // Millətdə, dövlətdə, sənətdə. - Bakı : Nağıl evi, 2009. - S. 137-142. - Məqalə ilk dəfə "Günay" qəzetinin 17 dekabr 1994-cü il tarixli nömrəsində dərc edilmişdir.

# Məsləkim, silahım yazmaq
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 41
Çapa imzalanmışdır: 17.11.2019
Tirajı:100
Pulsuz